2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində
Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndələrinin və
maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması
haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# QƏRARI

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Milli Dirçəliş Hərəkatı Partiyası Kuralının 2024-cü il 1 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Mətin Fərəc oğlu Quliyev
Həbib Müzəffər oğlu Ələkbərov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə
Çingiz Yusif oğlu Əhədli.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov